**AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI**

# ƏMR

**15 aprel 2025-ci il** **10-1/3-1-46/2025**

## Peşə fəaliyyəti ilə bağlı tələb edilən lazımi sənəd və məlumatların təqdim edilməməsinə və Beynəlxalq Audit Standartlarının tələblərinə riayət edilməməsinə görə intizam və tənbeh tədbirləri barədə

"Azərtunel" MMC-də "Kermur Audit və Konsalting" MMC (hal-hazırda – "AF AUDİT" MMC) tərəfindən aparılmış auditin nəticəsi barədə Auditorlar Palatasının Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi vəzifəsini icra edən B.Orucov tərəfindən təqdim edilmiş 2025-ci il 26 fevral tarixli məktuba əsasən (məktub əlavə olunur) Auditorlar Palatası Şurasının 2022-ci il 19 oktyabr tarixli 349/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında" Əsasnaməyə uyğun olaraq "AF Audit" məhdud məsuliyyətli cəmiyyəti (direktor – Vahabov Adil İdris oğlu) barəsində intizam və tənbeh tədbirləri görülməsi məqsədilə **əmr edirəm:**

1. Auditorlar Palatası Şurasının 2023-cü 28 dekabr tarixli 362/5 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə" qaydaların 2.16.5-ci "Monitorinq üçün seçilmiş audit müqavilə öhdəlikləri üzrə auditor dosyeləri", 2.17-ci "Ehtiyac yarandığı halda auditor ortaya çıxan suallar barədə geniş izahat və şərhlər verməlidir" bəndlərinə uyğun olaraq "AF Audit" MMC-nin direktor-auditoru Vahabov Adil tərəfindən "Azərtunel" MMC-də aparılmış auditə dair auditor sübutlarının araşdırmaya təqdim edilməməsi səbəbindən həmin auditin nəticəsi keyfiyyətsiz hesab edilsin.

2. Auditorlar Palatası Şurasının 2022-ci il 19 oktyabr tarixli 349/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında" Əsasnamənin 5-ci "Xəbərdarlıq tənbehi" maddəsinin 8-ci "Palatanın rəhbərliyi, müvafiq struktur bölmələri, Palata Şurası yanında komitə və komissiyalar tərəfindən peşə mənsublarından / üzvlərindən peşə fəaliyyəti ilə bağlı tələb

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.esd.asan.gov.az/info/esign/T6iQ1IDI8nw3sjM3dTEZMbOec06POwlzhOHDpcAkzlI%3D

edilən lazımi sənəd və məlumatların təqdim edilməməsi” və 11-ci “Beynəlxalq Audit Standartlarının tələblərinə riayət edilməməsi və keyfiyyətsiz auditor xidməti göstərilməsi” bəndlərinə əsasən “AF Audit” məhdud məsuliyyətli cəmiyyətinə (direktor – Vahabov Adil İdris oğlu) xəbərdarlıq elan edilsin.

3. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) tapşırılsın ki, bu əmrdən irəli gələn məsələləri həll etsin.

4. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, bu əmrin mətninin qeyd edilən auditor təşkilatına göndərilməsini təmin etsin.

5. Bu əmrin mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədri** **Vahid Novruzov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.esd.asan.gov.az/info/esign/T6iQ1IDI8nw3sjM3dTEZMbOec06POwIzhOHDpcAkzIl%3D